**“Siyasi partiyalar tərəfindən təqdim edilmiş illik maliyyə hesabatlarının qəbul olunması və nəzərdən keçirilərək ictimailəşdirilməsi qaydalarına dair Təlimat”a dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

Siyasi partiyaların maliyyə hesabatları ilə əlaqədar münasibətlərin daha təkmil tənzimlənməsi məqsədilə “Siyasi partiyalar tərəfindən təqdim edilmiş illik maliyyə hesabatlarının qəbul olunması və nəzərdən keçirilərək ictimailəşdirilməsi qaydalarına dair Təlimat”a bəzi dəyişikliklərin edilməsi zərurəti yarandığından, Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində həmin dəyişikliklərin edilməsi, rəsmi dərci və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 75.2-ci, 78.2-ci və 78.3-cü, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 15 may 2015-ci il tarixli 9/79 saylı Qərarı ilə təsdiq edilmiş “Siyasi partiyalar tərəfindən təqdim edilmiş illik maliyyə hesabatlarının qəbul olunması və nəzərdən keçirilərək ictimailəşdirilməsi qaydalarına dair Təlimat”a aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.3-cü bəndə “Hesabatlar Mərkəzi Seçki Komissiyasına daxil olduqdan sonra 1 iş günü müddətində elektron bazada yerləşdirilməklə ictimailəşdirilir” məzmunda 2.3.1-ci yarımbənd əlavə edilsin.

1.2. 2.5-ci bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin: “Hər bir maliyyə hesabatı barədə yoxlamanı həyata keçirən qurum tərəfindən rəy verilir, qanunvericiliyin tələblərinə uyğunlaşdırma ilə əlaqədar mümkün tədbirlər görüldükən sonra siyasi partiyanın real maliyyə fəaliyyətini tam görməyə imkan verən məlumatlar da bazaya əlavə edilir.”

2. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu Qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |